

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 156 (24.043)

19 avqust 2022-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Monqolustanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Qombosuren Munxbayarın etimadnaməsini qəbul edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Cənubi Afrika Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Dipuo Berta Letsatsi-Dubanın etimadnaməsini qəbul edib.

***

Həmin gün Prezident İlham Əliyev Çad Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Adum Danqay Nokur Qetin etimadnaməsini qəbul edib.

***

Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yeni Zelandiyanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Zoe Daun Kolson-Sinklerin etimadnaməsini qəbul edib.

***

Prezident İlham Əliyev avqustun 18-də Efiopiya Federativ Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Adem Muhammed Mahmudun etimadnaməsini qəbul edib.



## Təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunlara “Qızıl” və “Gümüş” nişanlar təqdim olunub



*Avqustun 18-də Naxçıvan Dövlət Texniki Kollecində 2021-2022-ci tədris ilində məktəbi xüsusi nailiyyətlə başa vuran məzunlarla görüş keçirilmişdir.*

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov “Qızıl” və “Gümüş” nişanlarla təltif olunan məzunları təbrik etmiş, qazandıqları uğurun muxtar respublikada təhsilə göstərilən dövlət qayğısının nəticəsi olduğunu bildirmişdir. Qeyd olunmuşdur ki, yaradılan şərait nəticəsində təhsil müəssisələrində tədrisin keyfiyyəti yüksəlmiş, istedadlı şagirdlərin sayı artmışdır. Öz istedadı ilə seçilən şagirdlər dövlət qayğısı ilə əhatə olunmuş, onların adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadların “Qızıl kitabı”na yazılmışdır. Bu tədris ilində də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə idman və STEAM təhsili sahəsində fərqlənən daha 2 şagirdin adı həmin kitaba yazılmış, onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülmüşlər.

Təhsil naziri tədris ili ərzində keçirilən müsabiqələrdən və əldə olunan uğurlu nəticələrdən də danışmışdır. Bildirilmişdir ki, “Sabahın tədqiqatçıları” layihəsi çərçivəsində 2021-2022-ci tədris ili ərzində IX-XI siniflərdə təhsil alan 37 şagirdin və 24 elmi rəhbərin iştirakı ilə 28 layihə işlənib hazırlanmışdır. Ölkə üzrə keçirilən “Sabahın alimləri” layihəsində 7 şagird 4 layihə ilə iştirak etmiş, 3 layihə beynəlxalq qurumların mükafatlarına layiq görülmüşdür. Təhsil naziri diqqətə çatdırmışdır ki, istedadı ilə fərqlənən şagirdləri aşkara çıxarmaq, onların potensialını inkişaf etdirmək məqsədilə cari tədris ilində Amerikan beynəlxalq riyaziyyat müsabiqəsi, Kenquru beynəlxalq riyaziyyat müsabiqəsi, məktəblilərin respublika fənn olimpiadası, Lütfi Zadə adına məntiq olimpiadası və VII Respublika fənn müsabiqəsi, SASMO beynəlxalq riyaziyyat olimpiadası da keçirilmişdir. Həmin olimpiada və müsabiqələrdə, ümumilikdə, muxtar respublika üzrə 5258 şagird iştirak etmiş, onlardan 329-u qalib olmuşdur.

Buraxılış və qəbul imtahanlarının nəticələri haqqında da danışan təhsil naziri bildirmişdir ki, muxtar respublikada yaradılan yüksək səviyyəli tədris şəraiti şagirdlərin hər iki imtahanda uğurlu nəticə qazanılmasına imkan vermişdir. Belə ki, 2021-2022-ci tədris ilində keçirilən buraxılış imtahanlarında 250-300 arası bal toplayan məzunların sayı ötən illə müqayisədə 50 faiz artıb. Qəbul imtahanlarında 200-700 intervalında bal toplayan abituriyentlərin sayı ötən illə müqayisədə 87, 600-700 intervalında bal toplayan şagirdlərin sayı isə 17 nəfər çox olmuş, 254 məzun 500-700 arasında bal toplamışdır.

Təhsil naziri qeyd etmişdir ki, bu tədris ilində də tədrisdə və buraxılış imtahanlarında əldə etdikləri nəticələrə görə məzunlardan 105-i təhsili xüsusi nailiyyətlə başa vurmuşdur. Bunlardan 19-u “Qızıl”, 22-si “Gümüş” nişanlara, 64-ü fərqlənmə attestatına, IX siniflər üzrə isə isə 55 şagird fərqlənmə attestatına layiq görülmüşdür.

Təqdimat mərasimində Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin direktoru Günay Novruzova, Şərur şəhər 2 nömrəli tam orta məktəbin şagirdi Nərmin Vəliyeva, valideyn Çingiz Mehdiyev çıxış edərək muxtar respublikada təhsilə göstərilən dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildirmişlər.

Sonra ümumtəhsil məktəblərini xüsusi nailiyyətlərlə bitirən məzunlara “Qızıl” və “Gümüş” nişanları təqdim edilmiş, onlarla xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

*“Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı”nın icrası Ordubad rayonunda da diqqətdə saxlanılır.*

## Ordubad rayonunda tikinti-quruculuq işləri davam etdirilir



2022-ci ilin ötən ayları ərzində Ordubad rayonunda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 31405 min manat və ya 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çox vəsait yönəldilib. Tikinti-quraşdırma işlərinə qoyulan vəsaitin dəyəri 1,3 faiz artaraq 30484,7 min manat təşkil edib.

Ordubad şəhərində qədim Cümə məscidində, Heydər Əliyev prospektində yerləşən 82 nömrəli yaşayış binasında əsaslı təmir işləri, Pəzməri kəndində ümumi orta məktəb, kənd və xidmət mərkəzləri binalarının, Kələki kəndində tam orta məktəb, kənd və xidmət mərkəzləri binalarının, Unus kəndində kənd və xidmət mərkəzi binalarının, Xanağa kəndində tam orta məktəb, kənd və xidmət mərkəzi binalarının tikintisi, Dırnıs-Kələki-Unus-Pəzməri kənd yolunda əsaslı təmir işləri, Ordubad və Tivi Su Elektrik stansiyalarının tikintisi davam etdirilir.

Quruculuq ünvanlarından biri də Ordubad rayonunun Azadkənd yaşayış məntəqəsidir. Sözügedən kənddə, eyni zamanda 336 şagird yerlik üçmərtəbəli məktəb binasının, kənd və xidmət mərkəzlərinin inşası davam etdirilir. Qısa müddət ərzində kənd və xidmət mərkəzlərinin hörgü işləri tamamlanıb, fasad divarlarının suvaq işləri yerinə yetirilib. 14 sinif otağının, biologiya, kimya, fizika laboratoriyalarının, kompüter, elektron lövhəli sinif otaqlarının, STEAM və hərbi kabinələrin yaradılacağı məktəb binasında isə üçüncü mərtəbənin hörgü işləri davam etdirilir. Bu günlər Aza kəndindəki qədim körpünün də əsaslı təmirinə başlanılıb.

**Xəbərlər şöbəsi**

## Ötən ay 471 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb

Muxtar respublikada torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi, mülkiyyət hüquqlarının qeydiyyatı zamanı operativliyin təmin edilməsi iyul ayı ərzində Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən diqqətdə saxlanılmışdır.

“2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı”na uyğun olaraq Naxçıvan şəhəri, Şərur, Ordubad, Culfa, Şahbuz və Kəngərli rayonlarının sərhədləri daxilində əkin dövriyyəsindən kənarda qalmış torpaqların əhatə etdiyi ərazilərin xəritələri hazırlanaraq Kənd Təsərrüfatı Nazirliyinə və müvafiq rayon (şəhər) icra hakimiyyətlərinə təqdim edilmişdir. “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”na uyğun olaraq Ordubad rayonu üzrə meyvə bağları və yaşıllıq zolaqlarına dair məlumatlar dəqiqləşdirilərək Torpaqların elektron kadastr uçotu informasiya sisteminə daxil edilmişdir.

Ötən ay 471 daşınmaz əmlak obyekti üzərində hüquqlar daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmış, 378 texniki sənəd hazırlanmış, 32 daşınmaz əmlak obyektinə ünvan verilmişdir. 67 torpaq sahəsinin planı və ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır.

Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə hesabat ayında Şərur şəhərinin, Şahbuz rayonunun Şahbuz şəhəri və Keçili kəndinin ərazisində monitorinqlər başa çatdırılmış, aşkar olunmuş qanun pozuntularının aradan qaldırılması istiqamətində iş aparılmışdır. Şahbuz rayonunun Mahmudoba və Nursu kəndlərinin ərazisində monitorinqlər davam etdirilmişdir. Şərur rayonunun Cəlilkənd, Axaməd, Babək rayonunun Göynük, Xalxal, Ordubad rayonunun Darkənd, Ağrı, Culfa rayonunun Teyvaz, Şahbuz rayonunun Güney Qışlaq kəndlərində vətəndaşlara səyyar xidmət göstərilmiş, qəbul edilmiş müraciətlər müvafiq qanunvericiliyin tələblərinə uyğun icra edilərək mülkiyyət sənədləri hüquq sahiblərinə təqdim olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti**

## İstehlakçıların təbii qazla təchizatı diqqət mərkəzindədir

Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında yaşayış məntəqələrinin və istehsal sahələrinin fasiləsiz və təhlükəsiz təbii qazla təminatını həyata keçirmək üçün Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində təsdiq olunmuş iş planına əsasən ardıcıl tədbirlər görülür. Muxtar respublikanın şəhər və rayon ərazilərindən daxil olan müraciətlərə əsasən iyul ayında 46 mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır ki, bunun 41-i əhali, 5-i isə qeyri-əhali abonentdir.

Muxtar respublikada əhali qrupundan olan abonentlərin mexaniki qaz sayğaclarının kənar müdaxilələrdən qorunması üçün ötən ay 24 mühafizə qutusu quraşdırılmışdır. Hesabat ayında Qaz İstismar Xidmətinə tabe şəhər, rayon qaz istismarı idarələrinin qəza-dispetçer sahələrinə *104* nömrəli 24 saat aktiv olan qaynar xəttinə təbii qaz istehlakçılarından qaz sızması, qaztənzimləyicilərin nizamlanması, elektron sayğacların kilidə düşməsi və qəza-bərpa işlərinə görə, ümumilikdə, 952 çağırış daxil olmuşdur. Çağırışlara vaxtında gedilmiş, təbii qazın nəqli bərpa olunmuşdur.

İyul ayında muxtar respublika qaz şəbəkəsində 624 qaz sızması aşkarlanıb, texniki istismar və texniki təhlükəsizlik qaydalarının tələblərinə müvafiq olaraq sızmalar aradan qaldırılmış, ay ərzində yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin görülməsi zamanı qaz boru xətlərinin yerinin dəyişdirilməsi, yaşayış binalarında təmir-tikinti, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar olaraq müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə edilmişdir.

Muxtar respublikada yerli qaz istismarı idarələrinin işçiləri tərəfindən qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti**

Dövlət proqramı icra olunur

# Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı istiqamətində tədbirlər davam etdirilir

*Qəbul olunan Dövlət proqramlarının icrası, güzəştli şərtlərlə kreditlərin verilməsi, aqrar sahədə müasir infrastrukturun yaradılması muxtar respublikada kənd təsərrüfatının müxtəlif sahələrinin, xüsusilə də əkinçiliyin inkişafına əlverişli şərait yaratmış, bol məhsul istehsalına və daxili bazarın tələbatının ödənilməsinə səbəb olmuşdur.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Kənd təsərrüfatı iqtisadiyyatın lokomotividir. Hər bir ölkədə inkişafın əsas hədəfi ərzaq təhlükəsizliyinin təmin olunmasıdır. Muxtar respublikada aqrar sahədə görülən işlər, həyata keçirilən islahatlar da bu məqsədə hesablanmışdır".*** Muxtar respublikada kənd təsərrüfatının inkişafına göstərilən dövlət dəstəyi bu istiqamətdə bir çox ənənəvi sahələrin davamlı inkişafını təmin edir. Bu sahələr içərisində meyvəçilik və tərəvəzçilik xüsusi yer tutur. Muxtar respublikanın təbii iqlim şəraiti və kənd əhalisinin çoxəsrlik təcrübəsi bu qədim diyarda meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üçün geniş imkanlar yaradır. Məhz bu potensialdan istifadə əsas götürülərək rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə həyata keçirilən dövlət siyasəti Naxçıvanda ərzaq təhlükəsizliyinin dayanıqlılığını təmin edən başlıca faktordur. Kənd əhalisinin məşğulluq səviyyəsinin və maddi rifahının yüksəldilməsi isə bu fəaliyyətin digər mühüm istiqamətini təşkil edir. Qeyd olunan istiqamətlər üzrə görülən işlərin davamlı xarakter almasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın mühüm rolu vardır.







Proqramın icrası cari ilin birinci yarısında da diqqətdə saxlanılmış, muxtar respublikada 13 min 820 ton meyvə və 17 min 456 ton tərəvəz məhsulu istehsal olunmuşdur. Meyvəçiliyin və tərəvəzçiliyin inkişafına dövlət maliyyə dəstəyinin göstərilməsi yanvar-iyun aylarında davam etdirilmişdir. Bu dövrdə Sahibkarlığın İnkişafı Fondu tərəfindən meyvə-tərəvəz istehsalı ilə məşğul olan 2 ailə təsərrüfatına 41 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Ümumilikdə, dövlət maliyyə dəstəyi hesabına 2 bağçılıq, 1 limonçuluq təsərrüfatının yaradılması və 1 bağçılıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmışdır. Əlavə olaraq, 253 sahibkarın 508 hektar sahədə əkin aparması üçün, ümumilikdə, 2105 ton toxumluq kartofun idxal rüsumu ödəmədən muxtar respublikaya gətirməsinə köməklik göstərilmişdir. Həmçinin birinci yarım ildə Şərur Sənaye Məhəlləsində meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi və qurudulması sahəsinin yaradılması istiqamətində işlər davam etdirilmişdir. Sənaye məhəlləsində müvafiq sahənin fəaliyyətə başlaması meyvə-tərəvəz əkininə marağı daha da artıracaqdır ki, bu da, öz növbəsində, kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsinə təkan verəcəkdir.

Meyvəçilik və tərəvəzçilik muxtar respublikada aqrar sektorun mühüm inkişaf istiqamətlərindən birini təşkil edir. Mövcud meyvə bağlarına aqrotexniki qulluğun göstərilməsi ilə yanaşı, onların əhatə etdikləri sahələrin genişləndirilməsi də xüsusi diqqətdə saxlanılır. Dövlət proqramının icrasına uyğun olaraq cari ilin birinci yarısında muxtar respublikada 52 hektar sahədə yeni meyvə bağları salınmış, eləcə də Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən aparılan əkin-bərpa işlərində 23 min meyvə tingi və 1280 kiloqram meyvə toxumundan istifadə olunmuşdur.

Naxçıvanda əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsində və emal müəssisələrinin xammal təchizatında kənd təsərrüfatı məhsulları istehsalının xüsusi önəmi vardır. Muxtar respublikada aqrar sektorun inkişafına ciddi əhəmiyyət verilir, intensiv metodlar əsasında məhsul istehsalı ildən-ilə artırılır. Bu istiqamətdə görülən işlərdən biri də istehsal edilən məhsulların saxlanılması üçün soyuducu anbarların tikintisidir. Məhsulun soyuducu anbarda öz keyfiyyətini itirmədən saxlanılması onun ilin istənilən dövründə bazara çıxarılmasına və əhalinin tələbatının ödənilməsinə imkan verir. Məhsulun bol və qiymətinin münasib olmasına, həmçinin istixana təsərrüfatlarının sayının artırılması da təsir göstərir. Qış aylarında faraş tərəvəz məhsullarına olan tələbatın ödənilməsi üçün müasir istixana komplekslərinin qurulması və mövcud sahələrin genişləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Proqramın icrası məqsədilə birinci yarım ildə muxtar respublikada dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına tutumu 110 ton olan 1 soyuducu anbarın, ümumi sahəsi 2750 kvadratmetr olan 3 istixana təsərrüfatının yaradılması, 3 istixana təsərrüfatı sahəsinin, ümumilikdə, 2264 kvadratmetr genişləndirilməsi başa çatdırılmış, ümumi tutumu 750 ton olan 2 soyuducu anbarın yaradılması davam etdirilmişdir.

Məhsul istehsalçılarının bazara çıxışının asanlaşdırılması onların geniş alıcı dairəsi ilə təmasda olmasına şərait yaradır. Bu məqsədlə təşkil edilən yarmarkalar meyvə-tərəvəz istehsalı ilə məşğul olan təsərrüfatçılar üçün mühüm stimullaşdırıcı əhəmiyyətə malikdir. Digər tərəfdən bu cür yarmarkaların təşkili istehlakçılar üçün də ucuz və bol məhsul əldə etmək, eyni zamanda satıcı və alıcı arasında birbaşa əlaqə yaratmaq baxımından da önəm kəsb edir. Bu istiqamətdə işlər ilin birinci yarısında da davam etdirilmiş, hər həftənin şənbə və bazar günləri Naxçıvan şəhərində və rayon mərkəzlərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkaları xüsusi marağa səbəb olmuşdur. Bundan əlavə, 4-5 iyun tarixlərində Naxçıvan şəhərində keçirilən ənənəvi "Göyçə" festivalına muxtar respublika üzrə 278 ailə təsərrüfatı tərəfindən 9 çeşiddə 25031 kiloqram göyçə çıxarılmış, iki gün ərzində 88857 manat dəyərində məhsul satılmışdır.





Muxtar respublikada meyvəçilik və tərəvəzçilik sahəsi üzrə fəaliyyət göstərən təsərrüfatçılar üçün stimullaşdırıcı xarakter daşıyan digər mühüm bir vasitə isə sığorta mexanizmidir. Mülkiyyətçinin öz sahəsini təbiət hadisələrindən və digər risklərdən sığortalaması onun təhlükəsiz fəaliyyət göstərməsinə və daha geniş ərazidə əkin aparmasına şərait yaradır. Dövlət proqramında bu istiqamətdə nəzərdə tutulan tapşırıqların icrası birinci yarım ildə diqqətdə saxlanılmış, 39-u meyvə, 42-si tərəvəz sahəsi üzrə olmaqla, təsərrüfatçılarla, ümumilikdə, 81 sığorta müqaviləsi bağlanılmışdır.

Məhsulun satış qabiliyyətini yüksəldən faktorlardan ən mühümü onun keyfiyyətidir. Keyfiyyətli məhsul istehsalçı üçün satış imkanlarının üstünlüyü, istehlakçı üçün sağlamlıq, bütövlükdə, dövlət üçün iqtisadiyyatın inkişafı deməkdir. Keyfiyyət göstəricisi dedikdə qidanın həm təhlükəsizlik, həm də qida dəyərliliyi nəzərdə tutulur. Əgər bir məhsul tərkibində ona tələb olunan qida maddələrini saxlayırsa, insana lazım olan vitamin, mineral, zülal, karbohidrat, yağ və sair ilə təmin olunubsa, deməli, o, keyfiyyətli məhsul sayılır. Muxtar respublikada bazara təqdim olunan bütün məhsulların keyfiyyəti nəzarətdə saxlanılır ki, bu istiqamətdə meyvə-tərəvəz və onlardan hazırlanmış məhsullar xüsusi yer tutur. Cari ilin birinci yarısında "İstehlak Mallarının Ekspertizası" Məhdud Məsuliyyətli Cəmiyyətində meyvə-tərəvəz məhsullarından götürülən 90 nümunə laboratoriya analizlərinə cəlb edilmişdir. Həmçinin bu dövrdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən aparılan monitorinqlər üzrə məhsulların 84 halda keyfiyyət və ya təhlükəsizlik göstəriciləri yoxlanılmış, məhsulların texniki-normativ tələblərə cavab verdiyi müəyyən olunmuşdur. Digər tərəfdən torpaqların da aqrokimyəvi analizə cəlb olunması ilə toxum və tingin ekoloji xüsusiyyətinə uyğun münbit torpaqda əkilməsi meyvə-tərəvəzin məhsuldarlığına ciddi təsir etmiş, bol məhsul əldə edilməsinə səbəb olmuşdur. Proqramda bu istiqamətdə nəzərdə tutulan tədbirlər birinci yarım ildə davam etdirilmiş, 6 torpaq nümunəsinin aqrokimyəvi analizi aparılaraq nəticəsi torpaq mülkiyyətçilərinə təqdim edilmişdir.

Meyvə-tərəvəzin məhsuldar torpaqda yetişdirilməsinə nail olmaq işin bir tərəfidirsə, torpaqlardan səmərəli istifadəni təmin etmək üçün onların xəritələşdirilməsi məsələnin digər tərəfidir. Proqramda meyvə bağlarının salınması üçün müəyyənləşdirilmiş sahələrin xəritələşdirilməsi ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. Bu istiqamətdə ilin birinci yarısında Şərur, Babək, Ordubad, Kəngərli və Şahbuz rayonlarında meyvə bağlarının salınması məqsədilə fiziki şəxslərin icarəsinə verilmiş, ümumilikdə, 15 hektar torpaq sahəsi xəritələşdirilmiş və uçotu aparılmışdır.

Meyvə-tərəvəz istehsal edən təsərrüfat sahibləri ilə maarifləndirici görüşlərin keçirilməsi isə onların təsərrüfat fəaliyyətini düzgün istiqamətləndirməyə imkan vermişdir. Bu məqsədlə yanvar-iyun aylarında 29 seminar-müşavirə keçirilmiş, məhsul istehsalının artırılması və aqrotexniki qaydalara əməl olunması ilə bağlı 10 adda 120 nüsxə buklet hazırlanaraq paylanmışdır. Qeyd etmək lazımdır ki, maarifləndirmə tədbirləri çərçivəsində təsərrüfat sahiblərinə mütəxəssis məsləhətlərinin verilməsi onların əkin sahələrində məhsuldarlığa nail olmaqla iqtisadi zərərə düşmələrinin qarşısını alır.

Dövlət proqramının icrası Naxçıvanda meyvə-tərəvəzə olan tələbatın yerli istehsal hesabına ödənilməsi və ərzaq təhlükəsizliyinin təmin olunmasına yeni nailiyyətlərə yol açacaqdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Kənd təsərrüfatı sahəsində aparılan islahatlar daha da böyük nəticələrə çatmağa imkan verəcək".***

**"Şərq qapısı"**

# Zəhmətə könüldən bağlananda

Ölkəmizin Şərqə açılan qapısı sayılan, möhtəşəm Əlincəqalası, Haçadağı ilə məşhurlaşan Culfa rayonunda qədim və zəngin təsərrüfatçılıq ənənələri müasir dövrdə də yaşadılır, inkişaf etdirilir. Bu bölgəmizdə sakinlər müxtəlif fəaliyyət sahələri ilə məşğul olsalar da, son illərdə, xüsusilə Yaycı kəndində yetişdirilən soğana tələbat çoxdur. Yaşayış məntəqəsinin ailə təsərrüfatçılarından Solmaz İmanova, Mübariz Məmmədyarov, Məhəmmədəli Abbasov, Əfqan Quliyev bu məhsulun becərilməsi ilə xüsusi məşğul olurlar. Təsərrüfat adamları cari mövsümdə kənddə 5 hektar sahədə soğan əkini həyata keçiriblər. Ötən illərə nisbətən bu il daha çox məhsul yetişib, hazırda təsərrüfatçılar satış işləri ilə məşğuldurlar. ***Mübariz Məmmədyarov*** bizimlə söhbətində bildirdi ki, bu gün hər kəs kartofu haqlı olaraq "ikinci çörəyimiz" adlandırır. Ancaq düşünürəm ki, bu mənada, soğanı da kartofla yanaşı qoymaq olar. Çünki yeməklərimizin əksəriyyətini bu məhsulsuz təsəvvür etmək qeyri-mümkündür. Digər yandan, insan sağlamlığına faydaları da çox olduğundan diyarımızda soğana tələbat həddindən artıqdır.



Hər bitkinin, meyvənin və ya tərəvəzin öz vətəni var. Nümunə üçün limon, ərik Ordubad, cəviz, badam Şahbuz, şaftalı, göycə Şərur torpaqlarını sevdiyi kimi, soğan da Yaycıda daha məhsuldar olur. Təbii ki, bunun da əsas səbəbi iqlim və torpağın tərkibindəki üzvi maddələrlə bağlıdır. Burada yetişdirilən sortlar dad və digər keyfiyyəti ilə də seçilir. Həm də Yaycı soğanını uzun müddət xarab olmadan saxlamaq mümkündür. Ötən illərdə istehsal etdiyimiz məhsulun bazarlarda münasib qiymətə satılması və məhsuldarlığın yüksək olması soğan istehsalına marağımızı daha da artırıb.

Əvvəlcədən lil və çöküntülərdən təmizlənən su kanalları, hər il yenilənən arxlar, o cümlədən əkin sahələrini vaxtlı-vaxtında su ilə təmin edən Yaycı gölü və "Yaycı-1", "Yaycı-2" nasos stansiyalarının kənddə soğan əkininə də böyük təsir göstərdiyini vurğulayan Mübariz kişi bildirdi ki, bu bitki üçün alaqsız torpaqlar daha əlverişlidir. Soğan işıqsevən olduğundan əkin üçün açıq və günəvər sahə seçilməlidir. Kök sistemi əkin qatının üst hissəsində yerləşdiyinə görə dərindəki ehtiyat qida maddələrindən lazımi qədər istifadə edə bilmədiyi üçün soğan əkilən sahələr üzvi və mineral gübrələrlə lazımınca təmin edilməlidir. Onu da qeyd edir ki, əvvəllər xaricdən gətirilən soğan toxumları məhsuldarlığı aşağı salırdı. Artıq bir neçə ildir ki, yerli soğan sortlarından istifadə edir, növbəli əkinə üstünlük veririk. Növbəli əkin məhsuldarlığın artırılmasında mühüm şərtlərdən biridir. Yaycı soğanının alıcısı daim başı üzərindədir. Ona görə də çalışırıq ki, ilbəil soğan əkinini daha da genişləndirək və rayonumuzda məhsul bolluğunun yaradılmasına öz töhfəmizi verək.

Böyük şairimiz Nizami Gəncəvi deyirdi ki, torpağa mərhəmət xeyirdir, inan, lütf etsən gül verər, zülm etsən tikan. Bəli, bir vaxtlar zülmlə, biganə münasibətlə üz-üzə qalan, sinəsini tikan basan torpaqlar bu gün dövlətimizin qayğısı, zəhmətkeş insanların böyük lütfü, əməyi sayəsində güllər, çiçəklər, bir-birindən dadlı-tamlı məhsullar yetirib-bitirir, diyarımızı bolluq-bərəkət ətrinə bürüyür, inkişaf, tərəqqi məkanına çevirir. Böyük həvəslə, şövqlə, sevgi ilə çalışan zəhmətkeşlərə uğurlar arzulayır, daim əməkləri ilə ucalmalarını, süfrələrini halal naz-nemətlə bəzəmələrini diləyirik...

**Nail ƏSGƏROV**

***Muxtar respublikamızda təhsil sahəsi diqqət və qayğı ilə əhatə olunub. Bunun ifadəsidir ki, gənclərin elmə, təhsilə, müxtəlif sənət, peşə sahələrinə yiyələnmələri üçün hərtərəfli şərait yaradılır, təhsil müəssisələrində innovativ texnologiyalardan, müasir tədris metodlarından istifadə öz müsbət nəticələrini verir. Qəbul imtahanlarında əldə olunan uğurların yüksələn templə artması da məhz təhsil sahəsində görülən işlərin, bu istiqamətdə reallaşdırılan layihələrin bəhrələridir.***

*Gəncliyimiz, gələcəyimiz*

## Gələcək cəmiyyətimizin təminatı bugünkü gənclərdir

Bu gün göstərilən diqqət və qayğıdan bəhrələnən Şahbuz rayonunda müasir tələblərə cavab verən yeni məktəb binaları tikilib və ya əsaslı şəkildə yenidən qurulub. Bütün məktəblərdə kitabxanalar, idman zalları, fənn kabinələri, laboratoriyalar yaradılıb, müasir kompüter dəstləri və texniki avadanlıqlar quraşdırılaraq müəllim və şagirdlərin ixtiyarına verilib. Bunun nəticəsidir ki, rayon üzrə 23 ümumtəhsil məktəbini bitirmiş 123 məzunun 108-i ali, 13-ü isə orta ixtisas məktəblərinə sənəd qəbulunda iştirak edib. Buraxılış imtahanının nəticəsinə görə 300 ballıq sistem üzrə 11 nəfər 200- dən yuxarı, 3 nəfər isə 250-dən yuxarı bal toplayıb. 1 məzun 289 bal toplayaraq muxtar respublika ikincisi olub. 2021-2022-ci tədris ilində 11-ci sinfi bitirmiş məzunlardan 1-i "Qızıl" nişana, 2-si fərqlənmə attestatına, 9-cu sinfi bitirmiş məzunlardan isə 4-ü fərqlənmə şəhadətnaməsinə layiq görülüb. 1 nəfər 11-ci sinif şagirdi coğrafiya fənnindən respublika fənn olimpiadasında iştirak edərək III yerin qalibi olub.

Şahbuz şəhər 1 nömrəli tam orta məktəb rayonda özünəməxsus təhsil ənənələri olan tədris müəssisələrindən biridir. Məktəbin onlarla məzunu ölkəmizdə elmi potensialları ilə seçilən qabaqcıl ziyalılardandır. Hər tədris ilində uğuru, ali məktəblərə qəbulu ilə seçilən məktəbin builki nəticələri də ürəkaçandır.

Məktəbin yetirmələrindən olan ***Yusif Kazımlı*** ali məktəblərə qəbul imtahanlarında rayon üzrə ən yüksək nəticə göstərib. O, I ixtisas qrupu üzrə keçirilən qəbul imtahanlarında 664 bal toplayıb. Yusif qəbul imtahanında qazandığı uğurun sevincini bizimlə bölüşərək qeyd etdi ki, dövrlə ayaqlaşmaq, müasir texnologiyalardan baş çıxarmaq zəruridir. Əks halda, perspektivli gələcək qurmaq, tutduğun yolda uğur qazanmaq mümkünsüz olar. Elə qəbul imtahanlarına hazırlaşan zaman məqsədim və gələcək planlarım da bununla bağlı olub. Uşaqlıqdan Kompüter elmləri ixtisasına yiyələnmək ən böyük arzularımdan biri idi. Bu yolda gecə-gündüz çalışaraq sevdiyim ixtisas üzrə təhsilimi davam etdirməyi qarşıma məqsəd qoydum və nəticədə, tələbə adını qazandım. Bu nailiyyətim üçün özümü xoşbəxt hiss edirəm. Nailiyyətlərimin təməlində isə, heç şübhəsiz, təhsilə göstərilən dövlət qayğısı və müəllimlərimin öz işlərinin öhdəsindən layiqincə gəlmələri dayanır.



Badamlı qəsəbə tam orta məktəbinin məzunu ***Elmira İsmayılova*** IV ixtisas qrupu üzrə 608 bal toplayıb. O deyir ki, hələ ibtidai sinifdən dəqiq elmlərə maraq göstərib. Qazandığı böyük uğur üçün müəllimlərinə borclu olduğunu bildirən Elmira onu da qeyd etdi ki, kiçik yaşlarından valideynləri onu gələcəkdə həkim kimi görmək istəyirdilər, yuxarı siniflərdə oxuyarkən muxtar respublikamızda fəaliyyət göstərən müasir səhiyyə ocaqlarında olub, orada çalışan tibbi personalı görüb və bu sahəyə marağı daha da çoxalıb. Beləcə, həkimlik peşəsini həyat amalına çevirməyi qarşısına məqsəd qoyub: – Uğur qazanmaq üçün ailəmin, müəllimlərimin dəstəyi böyük olub. Onlardan aldığım dəstək sayəsində səylə çalışdım və ürəkaçan nəticəni qazandım. Düşünürəm ki, istənilən sahədə nailiyyət əldə etmənin yeganə yolu əzmlə çalışaraq elmin incəliklərini öyrənib düzgün tətbiq etməyi bacarmaqdır. Fürsətdən istifadə edib bütün abituriyentlərə ixtisas seçimində uğurlar arzulayıram.



Badamlı qəsəbə tam orta məktəbinin digər şagirdi isə ***Hüseyn Babayev*** II ixtisas qrupu üzrə 546 bal toplayaraq müəllim və valideynlərini sevindirib. Bu barədə fikirləri maraqlıdır:



– Tələbə adını qazanmaq, gələcəkdə xalqın və dövlətin üçün layiqli vətəndaş kimi yetişmək istəyirsənsə, təbii ki, çox oxuyub, çox öyrənməlisən. Böyük şairimiz Nizami Gəncəvinin "Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz" kəlamı da hər birimizə cəmiyyətdə elmin, təhsilin, savadın hər şeydən üstün olduğunu aşılayır. Ali məktəbə qəbul hər bir şagirddən yüksək bilik, intellektual səviyyə tələb edir. Yaradılan şəraitdən düzgün və səmərəli istifadə edən hər kəs buna nail ola bilər. Mən də məktəbimizdə yaradılan hərtərəfli şəraitdən istifadə edərək oxuyub, öyrəndim. Test-sınaq imtahanlarında biliyimi sınadıqca güclü və zəif tərəflərimi gördüm. Topladığım ballardan hər dəfə bir nəticə çıxardım. Və bu gün zəhmətimin bəhrəsini gördüm, tələbə adını qazandığım üçün sevinirəm.

Söhbət zamanı Hüseyn onu da vurğuladı ki, Azərbaycanın gələcəyi biz gənclərə etibar olunacaqdır. Ölkəmizin rifahı üçün çalışmalı, müstəqil dövlətimizə, Vətənimizə və xalqımıza layiq mütəxəssislər kimi yetişməliyik.

***Nurcan Məmmədli*** Mahmudoba kənd tam orta məktəbinin yetirməsidir. Ali məktəblərə qəbul imtahanlarında III ixtisas qrupu üzrə 536 bal toplayıb. Qəbul imtahanlarında yüksək bal toplayan Nurcanın dedikləri: – Bitirdiyim təhsil ocağındakı fənn kabinələri, işıqlı dərs otaqları, zəngin kitabxana hər bir şagirdin yüksək səviyyədə təhsil almasına geniş imkanlar açır. Belə yüksək şəraitdən müəllimlərimiz və şagirdlərimiz səmərəli istifadə edirlər. Şagird olduğum illər ərzində üzərimdə hər zaman qayğı, bilik sahibi olmağım üçün diqqət hiss etmişəm. Belə yüksək diqqət və qayğının əvəzində çox çalışmalı, yaxşı oxumalı, ümidləri doğrultmalı olduğumu da vaxtında anlamışam. Qarşıma məqsəd qoymuşdum ki, mən tələbə olacağam. Yüksək bal toplayacağıma isə elə imtahanda əmin olmuşdum. Gözlədiyim kimi də oldu. Dəqiq elmlərə marağım çox olub. Ona görə də ixtisas seçimində I qrupu seçdim. Amma iş hələ bununla bitmir. Qarşıda məni daha məsuliyyətli tələbəlik illəri gözləyir. Bundan sonra da yaxşı oxuyaraq seçdiyim ixtisasa dərindən yiyələnməliyəm.



Öz məqsədinə çatmaq üçün heç bir zaman oxumaqdan, öyrənməkdən çəkinməyən, öz çalışqanlığı ilə seçilən Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin yetirməsi ***Emin İsmayıllı*** da uğur qazananlar siyahısına öz adını yazdırmağı bacarıb. O, çalışqanlığı ilə müəllimlərinin hörmətini qazanıb. Məktəbdə keçirilən hər bir test imtahanı onun üçün uğura doğru gedən yolda bir mərhələ rolunu oynayıb. Orta məktəbi yüksək nəticələrlə bitirib, qazandığı bilikləri I qrup üzrə ali məktəblərə qəbul imtahanlarında sınayıb. Nəticə ürəkaçan olub. O, bu imtahanlarda 536 bal toplayaraq yaxınlarını, ona bu yolda işıq tutan, doğru yol göstərən müəllimlərini sevindirib.



Müsahibim deyir ki, qəbul imtahanlarında yüksək nəticə göstərməyi qarşıma məqsəd qoyub, çox çalışmışam. İnanırdım ki, yüksək bal toplayacağam. Bu nəticəni göstərməyimdə müəllimlərimin əməyi böyükdür. Onlara minnətdarlığımı bildirirəm. Artıq tələbə olma sevincinə qovuşmağın bir addımlığındayam və təhsilimi Naxçıvan Dövlət Universitetində davam etdirəcəyimi qərarlaşdırmışam. Universitetlər haqqında məlumat toplayarkən mənə aydın oldu ki, ölkəmizin ali təhsil müəssisələri içərisində Naxçıvan Dövlət Universiteti xüsusi yer tutur. Ona görə də seçimim Naxçıvan Dövlət Universiteti olacaq. Gələcəkdə seçəcəyim ixtisas üzrə təhsil alıb, peşə borcumu layiqincə yerinə yetirəcəyəm.

*Gələcək cəmiyyətimiz bugünkü gənclərlə bağlıdır. Gəncliyin isə formalaşdığı ilk ünvan məktəbdir. Dövlətimizin qayğısı ilə ən müasir avadanlıqlarla təchiz olunan məktəblərimiz isə gənclərin həm tədrisdə, həm də təlim və tərbiyədə uğurlar qazanmasına imkan verib. Tələbə adına layiq görülənlər məhz buna görə də, ilk növbədə, dövlətimizə minnətdardırlar.*

**Pərviz HACILI**

## Ailə, qadın və uşaq hüquqları qorunur

***Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması iyul ayı ərzində diqqətdə saxlanılmış, təlim, monitorinq və səyyar sərgi-satışlar təşkil olunmuşdur.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən muxtar respublikanın turistik mərkəzlərində, o cümlədən "Xan Çinar" İstirahət Mərkəzində, Batabat yaylağında, "Saat Meydanı" Turistik İstirahət Mərkəzində, "Dübəndi" ailəvi istirahət məkanında istedadlı qadınların əl işlərindən ibarət səyyar sərgi-satışlar təşkil edilmişdir. Həmin sərgi-satışlarda muxtar respublikanın yeraltı və yerüstü sərvətlərindən istifadə edilərək müxtəlif yerli və təbii daşlardan bəzək əşyaları, toxuma, tikmə, dekorativ iş, muncuq, gips, mis və duzdan hazırlanan əl işləri, taxta üzərində oyma, taxta üzərində yandırma, xalça, dekorativ, tikmə tablo, həmçinin muxtar respublikanı tərənnüm edən sulu və yağlı boya ilə işlənmiş tablolar, olmaqla, 31 istedadlı qadının 1382 manat dəyərində 230 əl işi satılmışdır. Həmçinin hesabat dövründə qadınların özünüməşğulluğunun təmin edilməsi məqsədilə onların əl işlərinin satışına köməklik göstərilmiş, muxtar respublikada fəaliyyət göstərən əl işləri mağazalarında, ümumilikdə, 9 istedadlı qadının 903 manat dəyərində 65 əl işi satılmışdır.



Ötən ay sağlamlıq imkanları məhdud şəxslərin və evdar qadınların məşğulluqlarının təmin edilməsi məqsədilə İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi tərəfindən maliyyələşdirilən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən icra olunan "Ailə rifahı naminə qadınları maarifləndirək" layihəsi iştirakçılarına sərmayə kapitalının verilməsi ilə bağlı tədbirlər görülmüşdür. Sərmayə kapitalı alacaq qadınların məşğul olacağı sahələr üzrə siyahı hazırlanmış və Azərbaycan Mikromaliyyə Assosiasiyasına təqdim edilmişdir. Azərbaycan Mikromaliyyə Assosiasiyası ilə qadınlar arasında müqavilələrin bağlanması və sərmayə kapitalının köçürülməsi məqsədilə layihə iştirakçıları tərəfindən Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rayon idarələrinə müraciət olunaraq VÖEN-nin alınması, həmçinin "Naxçıvanbank" ASC-nin və "Kapital Bank" ASC-nin rayon filiallarında bank hesablarının açılması prosesi həyata keçirilməkdədir.

Hesabat ayında Ordubad şəhərində yaşayan, xüsusi qayğıya ehtiyacı olan Əliyevlər ailəsinə baş çəkilmiş, onların problemləri ilə maraqlanılmış və ailəyə ehtiyaclarına uyğun köməklik göstərilmişdir. İyul ayında "İrriqasiya və drenaj sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində muxtar respublikada həyata keçiriləcək işlərlə əlaqədar Asiya İnkişaf Bankı tərəfindən seçilmiş Fransanın SOFRECO və Banqladeşin BETS şirkətlərinin sosial və gender məsələləri üzrə yerli mütəxəssisi İlahə İlyasova ilə komitədə görüş keçirilmişdir.

Şahbuz rayonunda yaşayan xüsusi qayğıya ehtiyacı olan və istedadlı qadınlar üçün dekorativ-tətbiqi sənətin bədii tikmə sahəsinin öyrənilməsi ilə bağlı təlim keçirilmişdir. Naxçıvan Muxtar Respublikasında tək və ailə başçısı olan qadınların peşəyönümlü fəaliyyətə yönləndirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi ötən ay da davam etdirilmişdir. Müvafiq kateqoriyadan olan qadınlarla əlaqə saxlanılaraq peşə növləri haqqında ətraflı məlumat verilmiş, peşə təhsili alması ilə əlaqədar 6 qadının məlumatları Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinə göndərilmişdir. "Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi" və digər müvafiq layihələr çərçivəsində sərmayə kapitalı verilmiş 5 qadının iş yeri və təsərrüfat sahəsində sərmayə kapitalından düzgün istifadə etmələri ilə bağlı monitorinq keçirilmiş, nöqsan aşkarlanmamışdır.

Naxçıvan Muxtar Respublikasında xüsusi qayğıya ehtiyacı olan uşaqların hüquqlarının qorunması məqsədilə 1 uşaq reabilitasiya müəssisəsində, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 1 və xüsusi qayğıya ehtiyacı olan 1 uşağın evində monitorinqlər keçirilmiş, uşaq hüquqlarının pozulması hallarına rast gəlinməmişdir. Həmçinin muxtar respublikada yaşayan 10 sağlamlıq imkanları məhdud uşağın məktəb və məktəbəqədər təhsil müəssisələrinə cəlbi ilə bağlı evlərində monitorinq keçirilmiş, 2 uşaq məktəb, 5 uşaq isə məktəbəqədər təhsil müəssisəsinə cəlb edilmişdir. Hesabat dövründə hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum 5 uşağın himayə və ya qəyyumluğa verilməsi ilə bağlı məlumatların komitədə qeydiyyatının aparılması təmin olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## İxtisasartırma kurslarını bitirən rabitəçilərə sertifikatlar təqdim olunub




Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən ixtisaslı kadrların hazırlanması, işçilərin zəruri peşə istiqaməti üzrə biliklərinin artırılması, habelə müvafiq peşə ixtisasına yiyələnmələri istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu məqsədlə onlayn kurslar təşkil olunur, təlim və seminarlar keçirilir, müvafiq peşə ixtisasına malik olmayan əməkdaşların ixtisasartırma kurslarına cəlbi təşkil edilir. Bu tədbirlərin məntiqi davamı olaraq nazirliyin 2022-ci il iş planına əsasən Culfa və Şahbuz Rayon Rabitə idarələrinin müvafiq peşə ixtisasına malik olmayan işçilərinin cəlb olunduqları Naxçıvan Regional Peşə Tədris Mərkəzindəki Kabel xətlərinin quraşdırılması və təmiri üzrə rabitə montyoru ixtisasartırma kursunu bitirən 20 müdavim sertifikatlarla təmin olunub.

İxtisasartırma kursunda təhsil alan müdavimlərə rabitə avadanlıqlarının əsasları, paylayıcı şkaf və kabel qurğularının montajı, elektrotexnika, əməyin mühafizəsi, peşə etikası barədə dərslər tədris olunub.

Qeyd edək ki, cari ilin müvafiq dövrlərində Culfa, Şahbuz, Ordubad və Kəngərli Rayon Rabitə idarələrinin, ümumilikdə, 48 rabitə mütəxəssisi peşə kurslarını uğurla başa vuraraq sertifikatla təmin olunub.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

Dövlət proqramı icra olunur

# Turizmin inkişafı muxtar respublikada aparılan miqrasiya siyasəti ilə sıx bağlıdır

***Müasir dövrdə davamlı və dayanıqlı iqtisadi inkişaf, sosial cəlbedicilik, qədim tarix və zəngin mədəniyyət turizmin məhz ən önəmli faktorlarından hesab edilir. Bu gün əlverişli coğrafi mövqeyi, füsunkar təbiət müxtəlifliyini, müasirlik və tarixiliyi özündə ehtiva etməsi, eyni zamanda əmin-amanlıq şəraitində təhlükəsizliyin və ictimai-siyasi sabitliyin mütləq surətdə qorunması Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına etibarlı zəmin yaradıb.***



Maraqlıdır, bəs turizmin inkişafında miqrasiya proseslərinin rolu və əhəmiyyəti nədən ibarətdir?

Mövcud reallıqdır ki, Naxçıvan Muxtar Respublikasının perspektivli turizm diyarına çevrilməsi həm də muxtar respublikada aparılan miqrasiya siyasəti ilə sıx bağlıdır. Bu gün fəaliyyət istiqamətlərində miqrasiya proseslərinin idarə edilməsi, o cümlədən tənzimlənməsində innovativ metodların tətbiqi və şəffaflığın təmin edilməsi prinsiplərini prioritet kimi müəyyən edən Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti muxtar respublikaya səfər edən hər bir əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin, eləcə də turistlərin ölkədə olma və yaşama qaydalarına əməl etmələrinin təmin olunması, onlara rahat, operativ və şəffaf xidmətlərin göstərilməsi üçün məqsədyönlü tədbirləri uğurla davam etdirir.

Bu gün Dövlət Miqrasiya Xidmətində fəaliyyətin başlıca prioritetlərindən biri də mühüm əhəmiyyət kəsb edən Dövlət proqramlarının vaxtında və dəqiq icrasıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq edilən "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"na əsasən sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi, habelə sərhəd-buraxılış məntəqələrində sürətli keçidin təmin edilməsi istiqamətində zəruri tədbirlər görülüb. Belə ki, muxtar respublikaya gələn əcnəbilərin elektron qaydada olduğu yer üzrə qeydiyyatı üçün əlverişli şərait yaradılmış, bu sahədə məlumatlılıq səviyyəsi daha da artırılmışdır. Həmçinin miqrasiya bölmələrində Vahid Miqrasiya Məlumat Sistemi vasitəsilə muxtar respublikanı tərk edən əcnəbilərin pasportlarına və digər sənədlərinə nəzarət operativ qaydada həyata keçirilir ki, bu da Dövlət proqramının icrası istiqamətində atılan addımların mühüm tərkib hissəsidir.

Muxtar respublikanın malik olduğu geniş turizm potensialının inkişafı və yay turizm mövsümü ilə əlaqədar miqrantların səfərətmə niyyətinin artması, xüsusilə sərhəd-buraxılış məntəqələrində miqrasiya bölmələrinin vəzifə və məsuliyyət yükünü daha da artırıb. Miqrasiya bölmələrində əsas məqsəd miqrasiya proseslərinin daha çevik və işlək mexanizmlərlə tənzimlənməsindən, qanunsuz miqrasiyaya qarşı effektiv mübarizə tədbirlərinin həyata keçirilməsindən, o cümlədən diyarımıza turizm məqsədilə səfər edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin daha rahat giriş-çıxış etmələrinin təmin olunmasından ibarətdir. Naxçıvana gələn qonaqlar əgər muxtar respublikamızda müvəqqəti olmaları haqqında dəqiq məlumatlara sahib deyillərsə, bu zaman rahatlıqla miqrasiya bölmələrinə yaxınlaşa, elektron məlumat köşkləri vasitəsilə zəruri məlumatları əldə edə bilərlər. Əlavə olaraq məlumatlar Azərbaycan dili ilə yanaşı, rus və ingilis dillərində həm yazılı, həm də səsli formada təqdim olunur. Maarifləndirmə ilə bağlı mövcud prosedurlar yalnız elektron qaydada deyil, həm də miqrasiya bölmələrinin əməkdaşları tərəfindən şifahi olaraq həyata keçirilir, bu sahədə yarana biləcək istənilən çətinlik qarşısında rahatlıqla müraciətetmə qaydaları ətraflı izah olunur. Əminliklə demək olar ki, Dövlət Miqrasiya Xidmətinin əməkdaşları sərhəd-buraxılış məntəqələrinin miqrasiya bölmələrində istər sənədlərin yoxlanılması, istərsə də onlarla dialoq zamanı etik davranış qaydalarına mütləq surətdə riayət edirlər.

Son illər müxtəlif məqsədlərlə muxtar respublikamıza səfər edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin rahatlığını və məmnuniyyətini artıran əsas amillərdən biri də xidmət tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətinin artırılmasıdır. Bu gün miqrasiya bölmələrində Vahid Miqrasiya Məlumat Sistemi vasitəsilə xarici ölkə vətəndaşlarının Dövlət Miqrasiya Xidmətinə gəlmədən də olduğu yer üzrə qeydiyyata alınma prosesi operativ qaydada həyata keçirilir. Reallaşdırılan tədbirlərin məntiqi nəticəsidir ki, cari ilin birinci yarım ili ərzində sərhəd-buraxılış məntəqələrinin miqrasiya bölmələri tərəfindən 250-yə yaxın əcnəbi olduğu yer üzrə qeydiyyata alınıb. Həyata keçirilən ardıcıl tədbirlər, şübhəsiz ki, əcnəbilərin məmnunluq səviyyəsinin daha da artırılması istiqamətində atılan addımların növbəti təzahürüdür.

Muxtar respublikamıza səfər edən turistlərin rahatlığı və sərbəst hərəkət etmələri nə qədər önəmlidirsə, onların hüquq və vəzifələri, həmçinin miqrasiya qanunvericiliyi ilə bağlı məlumatlı olmaları da Dövlət Miqrasiya Xidmətinin diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Xüsusilə qeyd edilməlidir ki, qanuni miqrasiyanın təbliği və təşviqi, eyni zamanda operativ qaydada elektron xidmətlərin göstərilməsi, elektron müraciətlərin qəbulu və cavablandırılması işinin intensiv şəkildə həyata keçirilməsi sahəsində – 202 – Miqrasiya Məlumat Mərkəzinin, xidmətin *miqrasiya.nakhchivan.az* rəsmi saytının və sosial şəbəkə hesablarının rolu müstəsna əhəmiyyət kəsb etməkdədir.

Xidmətin rəsmi internet saytının daha çox əcnəbilər tərəfindən istifadəsi nəzərə alınaraq *www.migration.nmr.az* adı ilə də fəaliyyəti təmin edilib. Bununla da əcnəbilərin ingilis dilinə üstünlük verməsi və saytın ikinci adının məhz həmin dildə fəaliyyət göstərməsi istifadəçilərin işini daha da asanlaşdırıb. Belə ki, bu gün muxtar respublikaya səfər etmək niyyətində olan qonaqlar diyarımıza gəlmədən əvvəl də istər miqrasiya qanunvericiliyi, istərsə də qədim diyarımızın zəngin turizm potensialı ilə bağlı məlumatları ingilis dilində də əldəetmə imkanına malikdirlər.

*Bu gün muxtar respublikada miqrasiya sahəsində dövlət siyasətinin uğurla reallaşdırılması, miqrasiya proseslərinin beynəlxalq hüquq normalarına uyğun olaraq tənzimlənməsi və günün tələblərinə uyğun aparılması, habelə turistlərin rahatlığının və məmnunluğunun təmin edilməsi istiqamətində görülən işlərlə Dövlət Miqrasiya Xidməti də turizm sahəsinə öz töhfəsini verməyə çalışır, bu sahədə fəal miqrasiya siyasəti yürüdür.*

**Arif BAYRAMOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

## Şəhər birinciliyində qaliblər müəyyənləşib

Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbində Vətən müharibəsi şəhidi Araz Məmmədovun əziz xatirəsinə həsr olunmuş yeniyetmə və gənclər (2007-2009-cu illər) arasında yunan-Roma güləşi üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.



Birincilikdə Naxçıvan şəhərinin Vətən müharibəsi qaziləri və şəhidimizin ailə üzvləri iştirak ediblər. Sonra şəhid Araz Məmmədovun anası Xeyrənsə Məmmədova çıxış edərək ölkəmizin bütövlüyü uğrunda şəhid olan qəhrəmanlarımızı yad edib, birinciliyin təşkilatçılarına minnətdarlığını bildirib. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi tərəfindən şəhidin anası Xeyrənsə Məmmədovaya xüsusi plaket təqdim edilib.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən açıq birincilikdə Naxçıvan şəhəri ilə yanaşı, Sədərək və Kəngərli rayonlarının idmançıları da iştirak ediblər. 10 çəki dərəcəsi üzrə 50 idmançının qüvvəsini sınadığı açıq birinciliyin yekun nəticəsinə əsasən Fuad Rzayev (38 kiloqram, Naxçıvan), Turqay Məmmədli (41 kiloqram, Naxçıvan), Tuqay Qəhrəmanlı (44 kiloqram, Naxçıvan), Məhəmməd İsmayılov (48 kiloqram, Naxçıvan), Sadiq Kərimov (52 kiloqram, Naxçıvan), Namiq Əlizadə (57 kiloqram, Naxçıvan), Elnur Məmmədov (62 kiloqram, Naxçıvan), Eldar Abdullayev (68 kiloqram, Naxçıvan), Əli Sadıqlı (75 kiloqram, Naxçıvan) və Kənan Hüseynov (85 kiloqram, Naxçıvan) qalib adını qazanıblar.

Sonda hər çəki dərəcəsində ilk 3 yeri tutan idmançılar diplom və medallarla təltif olunublar.

**Ceyhun MƏMMƏDOV**

***Uşaqlar xəyalların, arzuların, ümidlərin zərif tumurcuğu, ailə qalasının misilsiz sevinc qaynağı, ilahi əmanətdir. Ailənin könül meyvəsi olan körpələr dünyaya gəlişiylə evlərə ömürlük səadət bəxş edirlər. Onlar sabaha inamımız, gələcəyimizdir. Lakin uşaq o vaxt ailəyə xoşbəxtlik verir ki, o, sağlam böyüsün. Körpələrin sağlamlığı üçün isə doğulan gündən ana südü ilə qidalanması ən vacib şərtdir. Bu əvəzolunmaz qidanın faydaları və körpəyə bəxş etdiyi rahatlığın dərəcəsi heç nə ilə müqayisəyə gəlməz.***

## Tanrının yer üzünə bəxş etdiyi əvəzolunmaz nemət



Mövzuyla bağlı həkim-pediatr ***İlkay Əliyeva*** ilə həmsöhbət olduq. O bildirdi ki, ana südü körpə uşaq üçün ən ideal qidadır. İlk günlərdə gələn kolostrum deyilən süd körpələr üçün olduqca faydalıdır. İlk süd həm də uşağın ilk peyvəndi sayılır.

Həkimin sözlərinə görə, tərkibi heç zaman tam aşkarlanmayan ana südü uşağın həzm sistemini tənəffüs yolu infeksiyalarından qoruyur. Gələcəkdə damar sərtliyini, hipertonus riskini azaltmaqla yanaşı, uşaqların zehni inkişafına da müsbət təsir göstərir. Bundan əlavə, ana və körpə arasında psixoloji yaxınlaşmanı təmin edir. Yeni doğulmuş körpənin mədə-bağırsaq sistemi qidanı mükəmməl şəkildə həzm edə bilmir. Ana südü bu problemi həll edir, ana və körpə arasındakı münasibəti qüvvətləndirir. Ana südü həm də allergiya xəstəliyinin qarşısını alır. Ana südünün tədricən dəyişməsi körpələrdə dadbilmə qabiliyyətinin də formalaşmasına kömək edir. Bu qidanın körpənin psixologiyasından tutmuş immunitet sisteminə, əqli inkişafından sümük bərkiməsinə qədər bir çox faydası vardır.

Ümumdünya Səhiyyə Təşkilatının göstərişləri də bu yöndədir. Beynəlxalq qurumun göstərişinə görə, ilk dəfə körpə doğuşdan 20-30 dəqiqə sonra ana südü dadmalıdır. Çünki ilkin südün tərkibinə körpənin həyatı üçün vacib olan bir sıra qoruyucu qidalı maddələr daxildir və bu maddələrə qarşı körpənin orqanizmi çox həssasdır. Buna görə də analar yeni doğulan körpələrini ilk 6 ay ərzində yalnız öz südləri ilə qidalandırmalıdırlar. Çünki yuxarıda sadaladıqlarımızdan da əlavə, uşağın ana südü ilə bəslənməsinin saysız faydaları vardır.

Həkim-pediatr ***Gülnarə Qasımova*** isə bildirdi ki, körpələrə erkən dövrdə verilən əlavə qidalar problem yarada bilər. Ana südü yerinə əlavə qidalarla bəslənən və ya 4 aydan əvvəl qatı qida ilə qidalanan körpədə 3 yaşına gəldikdə kökəlmə riski 6 dəfə arta bilər. Ana südü xəstəlikləri azaldır, hər hansı bir səbəbdən xəstəlik olduqda sağalmanı dəstəkləyir. O həm ana, həm də körpə üçün çox əhəmiyyətlidir.

Aparılan məqsədyönlü tədbirlərin nəticəsidir ki, son illər muxtar respublikada körpə ölümü halları minimum həddədir. Buna səbəb olan amillərdən biri də analar arasında düzgün maarifləndirici tədbirlərin aparılması, ana südünün faydalarının təbliğ olunmasıdır. Lakin bu sahədə nöqsanlarımız da var, – deyən həkim onu da bildirdi ki, bu gün ana südünün təbliğinə dövlətimiz tərəfindən böyük önəm verilir. Doğum evlərində analar üçün hər cür şərait yaradılıb ki, onlar uşaqlarını ilk gündən ana südü ilə qidalandırsın. Lakin bütün bunlara baxmayaraq, bir sıra hallarda analar öz körpəsini ana südü ilə qidalanmasına biganə yanaşırlar. Bu zaman doğum evlərində uşaqlara ilk gündən müxtəlif qarışıqlar verməyə məcbur olurlar. Bu qarışıqlar ancaq məcburiyyət qarşısında xəstə, riskli, yarımçıq doğulmuş uşaqlara verilə bilər. Sağlam uşaqlara bu qarışıqlar verilməməlidir. Çünki sonra ananın südü olmur və ya həm keyfiyyət, həm də kəmiyyətcə pozulur. Ona görə də ailələrdə və doğum evlərində ana südünün təbliği düzgün aparılmalıdır.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimi, neonatoloq-reanimatoloq ***Hafizə Rzayeva***nın sözlərinə görə, ana südü əvəzinə başqa qida maddələrindən istifadə etmək körpənin ehtiyacını tam ödəyə bilməz. Məsələn, digər qida maddələrindən heç biri körpənin immun sistemi üçün lazım olan anticisimlərə sahib deyil. Ana bətnindəki qorunmuş və mikrobsuz sahədən dünyaya gələn körpə, xarici dünyada bir çox mikrobla mübarizə aparmaq məcburiyyətindədir. Ana südünün ən mühüm xüsusiyyətlərindən biri də körpəni infeksiyalara qarşı qorumasıdır. Ana südündən körpəyə keçən qoruyucu hüceyrələr (anticisimlər) körpənin daha əvvəl heç tanımadığı mikroblarla sanki məlumatı varmış kimi mübarizə aparmağa başlamasını təmin edir. Xüsusilə doğumdan sonrakı ilk bir neçə gündə ifraz olunan və "ağuz" adlandırılan süddə bol miqdarda olan anticisimlər qoruyucu təsirlərini birbaşa göstərir. Ana südünün körpəni yüngül infeksiyalardan çox ağır infeksiyalara qədər qoruması, xüsusilə ilk bir neçə ayda böyük əhəmiyyət daşıyır və faydası qidalandırmanın müddəti ilə mütənasib şəkildə artır.

Hafizə həkim onu da tövsiyə etdi ki, körpəsinə südverən analar gündəlik qəbul etdikləri qidalara maksimum dərəcədə diqqət yetirməlidirlər. Belə ki, südverən ana soğan, sarımsaq, şokolad yeməməli, tünd çay və ya qəhvə qəbul etməməlidir. Həmçinin sitrus meyvələrini, konservantları və süni əlavələr qatılmış qida maddələrini, paxlalı bitkiləri, hisə verilmiş ət məhsullarını rasiondan çıxarmaq məsləhətdir.

Bir sözlə, ana südü körpələr üçün ən ideal bir qidadır. Müqəddəs kitabımız "Qurani-Kərim"də də qeyd olunur ki, ana öz körpəsinə 2 il süd verməlidir. "Kitabi Dədə-Qorqud" dastanında ana südünün müqəddəs, əvəzsiz bir məlhəm kimi təqdim olunması da analara bir tövsiyədir. Amma, təəssüf ki, bu gün körpələrimizin, təxminən, 60 faizi bu müqəddəs qida ilə böyümür. Analar düşünməlidirlər ki, körpəsinə süd verəndə onu yalnız doyurmur, körpə, eyni zamanda sağlam qidalanır, inkişaf edir. Bu səbəbdən də südəmər uşaq öz anasının qoxusunu, ürək döyüntüsünü və səsini tanıyır. Ana südündə sakitləşdirici komponentlər var ki, uşaq qorxanda, ağlayanda onu sakitləşdirir.

*Uzun sözün qısası, ana südü Tanrı tərəfindən yer üzünə göndərilmiş əvəzolunmaz bir nemətdir. Əziz analar, çalışın, körpənizi bu nemətdən məhrum etməyin!*

**Gülcamal TAHİROVA**

***İtmişdir***

Culfa şəhəri, M.Əsgərov küçəsi bina 17, mənzil 21 ünvanda yaşayan Məmmədov Vəli Abbas oğlunun adına verilmiş 10.04.2006-cı il tarixli 124 qeydiyyat nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Məsul katib: Muxtar MƏMMƏDOV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 724